# “Biz sülh istəyirik” adlı tədbir keçirilib

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin təşkilatçılığı ilə “Beynəlxalq sülh aylığı” çərçivəsində ”Biz sülh istəyirik” adlı tədbir keçirilib. Tədbirdə şəhid ailələri, mərkəzin könüllüləri və məktəblilər iştirak etmişdir. Tədbirdə 21 sentyabr Beynəlxalq Sülh Gününün tarixi və mahiyyəti haqqında ətraflı məlumat verilib. Çıxış edənlər vətən uğrunda gözlərini qırpmadan canından keçən, ölümün gözünə dik baxan oğullarımızın qəhrəmanlıqlarından və xalqımızın Ali Baş Komandan İlham Əliyevin ətrafında “Dəmir yumruq” kimi birləşərək düşmənə qarşı mətanətlə mübarizə aparmasından söz açmışlar. Tədbir zamanı uşaqlar “Dünyanı necə görmək istəyirik” mövzusunda rəsmlər çəkiblər. Sonda mərkəzin əməkdaşları şəhid Eyyubov Sərvan Yusif oğlunun ailəsini ziyarət edib.



# Qəbələdə zona təlimləri keçirilmişdir

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə “İctimai iştirakçılıq sahəsində bilik və bacarıqların artırılması” mövzusunda təlim keçirilmişdir. Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Ağdaş, Qəbələ və İsmayıllı rayonlarının icra hakimiyyəti başçılarının müavinlərinin və icra hakimiyyətləri yanında ictimai şuraların üzvlərinin iştirak etdiyi tədbirdə çıxış edən rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova çıxış etmişdir. O, Qəbələ rayonunun sosial-iqtisadi inkişafından və bu cür təlimlərin keçirilməsinin səmərəliliyindən bəhs etmişdir. QHT-lər və yerli icra hakmiyyəti orqanlarının ictimai iştirakçılıq, İctimai Şuralara seçkilərin təşkili və keçirilməsi prosesi, İctimai Şuraların hüquq və vəzifələri, fəaliyyət çərçivəsi, dövlət orqanlarının ictimai iştirakçılığın təmin olunması ilə bağlı öhdəlikləri sahəsində bilik və bacarıqlarının artırılması mövzusunda təlimlər Azərbaycan Açıq Hökumət Platformasının koordinatoru, hüquqşünas Əliməmməd Nuriyev və “Demokratiyanı öyrənmə” İB sədri, hüquqşünas Mirəli Hüseynov tərəfindən keçirilmişdir.

# Qəbələdə reabilitasiya işi

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin dəvəti ilə Türkiyə Respublikasından ölkəmizə gəlmiş bir qrup peşəkar klinik-psixoloq, psixoterapevtlər tərəfindən nazirliyin psixoloqları ilə birgə Qəbələ rayonu Modul Tipli Xəstəxanada Vətən müharibəsi ilə bağlı psixoloji problemlər yaşayan qazilərimizin və şəhid ailələri üzvlərinin reabilitasiyası işi davam etdirilir. Bu günədək klinik-psixoloq və psixoterapevtlər tərəfindən göstərilən xidmətdən 59 nəfər istifadə edib. Göstərilən yardımdan yararlanan qazi və şəhid ailələrinin üzvləri onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə öz minnətdarlıqlarını bildirirlər.

# Kross və gimnastika növləri üzrə yarış

Qəbələ Olimpiya İdman Kompleksində “Sağlam bədəndə sağlam ruh” devizi altında keçirilən idman yarışında 95 nəfər gənc iştirak etmişdir. Yarışın keçirilməsində məqsəd gənclər arasında sağlam həyat tərzi və idman yarışları vasitəsilə sosial fəaliyyətin artırılması, gənclərin Daxili İşlər Nazirliyi sistemində təhsil və xidmətə təşviq edilməsi və Daxili Qoşunlarda xidmətə həvəsləndirilməsindən ibarətdir. Tədbirdə öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir. Çıxış edənlər gənclər arasında sağlam həyat tərzinin təbliğində belə tədbirlərin əhəmiyyətindən və ölkəmizdə idmana göstərilən hərtərəfli dövlət qayğısından danışaraq idmançılara uğurlar arzulamışlar. Sonra Qəbələ Taekvondo Klubu və MMA bölməsinin idmançıları nümunəvi çıxışlarını təqdim etmişlər. Yarış 3000 m məsafədə kross qaçışı və turnikdə dartınma növləri üzrə keçirilmişdir. Sonda qalib gəlmiş idmançılara diplom, medal və hədiyyələr təqdim edilmişdir.

# Albaniyada əkinçilik mədəniyyəti

Arxeoloji qazıntılar nəticəsində əldə olunmuş dəlillər bütövlükdə eramızdan əvvəl I minilliyin II yarısının və eramızın ilk əsrlərinin Albaniyasının kifayət dərəcədə inkişaf etmiş oturaq maldarlıq, əkinçilik təsərrüfatına, sənətkarlıq istehsalına və ticarətə malik olmuş vilayət kimi təsvir edir. Lakin Albaniyanın ayrı-ayrı bölgələrində köçəri əhali qrupları yaşayırdılar.

**Əkinçilik, bağçılıq, üzümçülük**

Antik müəlliflər Albaniya kənd təsərrüfatının mənzərəsi haqqında müəyyən məlumat verir. Məsələn Strabon əkinçilik barəsində yazır ki, Albanlar həm cürbəcür (yabanı) meyvələr, həm də insanın yetişdirdiyi (mədəni) meyvələr verən torpaqdan da lazımi dərəcədə istifadə etmişlər. Burada həmçinin həmişəyaşıl (bitkilər) yetişir. Bir dəfə toxum səpilən torpaq bəzən iki və ya üç dəfə məhsul verir. Birinci dəfə hətta əlli qat məhsul yığırlar. (Bu zaman torpaq (herikə) qoyulmur) və hər hansı dəmir (kənd təsərrüfatı) aləti ilə deyil, adi ağacdan düzəldilmiş xış ilə şumlanır. Çayların suları və başqa sular bütün düzənliyi Babil və Misirdən xeyli yaxşı suvarır. Belə ki (düzənlik) daim zəngin otlaq görkəmində olur, buna görə də bərəkətlidir. Üstəlik burada hava da oradakından yaxşıdır. Qədim coğrafiyaşünas başqa bir yerdə qeyd edir ki, albanlar və iberlər münbit torpağa malikdirlər və təsərrüfatı yaxşı inkişaf etdirə bilirlər. Biz Strabonda əkinçilik üçün yararsız ərazi haqqında da işarələrə rast gəlirik. Məsələn: o yazır ki İberiyadan Albaniyaya gedən yol “Kambüsenadan suyu qıt olan dərə-təpəlik ərazidən keçir.” Bu dərə-təpəlik, eyni zamanda suyu qıt olan ərazidə əlbəttə əkinçilik inkişaf edə bilməzdi. Strabonun yuxarıda gətirilən məlumatı ilə əlaqədar olaraq ağac xışın xatırladılması maraq doğurur. Ədəbiyyatda onu ağac kotan da adlandırırdılar. Məlum olduğu kimi ağac xış qədim şərqin hər yerində geniş yayılmışdır və Albaniya bu baxımdan heç də istisna deyildi. Ağac kotan əsasən elə bir dəyişikliyə uğramamış ilkin formasını bizim günlərə qədər saxlamışdır. Ağac xış əkinçilərin əməyini yüngülləşdirir və əmək məhsuldarlığını artırırdı. Torpaq təkcə təsvir edilən üsulla deyil, həm də qəbirlərdə arxeoloqlar tərəfindən izləri qeydə alınmış müxtəlif çeşidli alətlərlə şumlanırdı. Məsələn, katakombalar qazılanda torpaq işləri, yəqin kürəklə görülürdü. Spesifik formalı Azərbaycan kürəyini xatırladan başqa bir alət bel haqqında da məlumat vardır. Bu cür alət Albaniyanın hüdudlarından kənarda da aşkar edilmişdir. İqqrasiya haqqında da bizə bəzi məlumatlar gəlib çatmışdır. Məsələn, çayların suları və başqa sular ilə Albaniya ərazisinin suvarılması haqqında Strabonun məlumatı maraq doğurur. Tədqiqatçıların haqlı olaraq qeyd etdikləri kimi Strabon “başqa sular” deyəndə ehtimal ki, iqqrasiya sistemini kəhrizləri və kanalları nəzərdə tutmuşdur. Azərbaycan ərazisində hələ qədim zamanlarda tikilmiş iqqrasiya qurğularının mövcud olması çoxdan məlum idi. Yerli əhali bu kanalların bir hissəsindən indi də istifadə edir.

Qədim Qafqaz Albaniyasında Gəncə yaxınlığında Şəmkir çayının subasarında kəhriz sisteminin mövcud olması qeydə alınmışdır. Hazırda Azərbaycan kəndlərində kəhrizlərdən istifadə olunur, yaxın keçmişdə Bakıda, Gəncədə, Şəmkirdə, Naxçıvanda və başqa şəhərlərdə əhali kəhrizlərdən istifadə edirdi.

**(Ardı gələn sayımızda).**


QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2022-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 15 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.



«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56


## ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon Statistika İdarəsinin kollektivi İdarənin rəisi Ayaz İsgəndərova atası

**İSAX QOÇUYEVİN**

vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

“Qəbələ” qəzetinin kollektivi Qəbələ Qeydiyyat şöbəsinin müdiri Zinyət Bağırovaya anası

**HİCRAN XANIMIN**

vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.


Redaktor Azad Məmmədov.

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində “Azərmedia” MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1300*